

**Hər kəsin ürəyində öz nəğməsi var və bu nəğmə onu heç zaman tərk eləmir. Bəmində qüssələnir, zilində sevinir, zümzüməsində kövrəlir insan. Və bu nəğmə onun əməlində, işində, sənətində, sözündə mütləq səslənir...**

**Onun səmimi, şirin təbəssümlü ağbəniz siması gözlərim önündən çəkilmir. Hər dəfə evinə gedəndə (otaqlarından biri emalatxanası idi) əli iynə-saplı iş başında görürdüm.**

# Mən bir nəğmə...

## Sənətkarın adı sənətinin rəmzinə çevrilmişdi...

**Onun səmimi, şirin təbəssümlü ağbəniz siması gözlərim önündən çəkilmir. Hər dəfə evinə gedəndə (otaqlarından biri emalatxanası idi) əli iynə-saplı iş başında görürdüm. Sanki başqa bir aləmə, nağıllar dünyasına düşürdüm: (bəlkə də, mənə elə gəlirdi) burada əsərlərdən yaranmış "darısqallığı" hiss etmirdim - emalatxanasındakı sonsuz işıq, əsərlərindəki hərarət mənə qəribə bir duyğu bəxş edirdi: tikmələrin gözəlliyi, sehri məni ovsunlayırdı, özlüyümdə qeyri-ixtiyari "nə gözəldir" pıçıldayırdım.**

Eləcə əyləşib onun muncuqları seçib bir-birinin ardınca düzməsinə saatlarla baxa bilərdim. Yəqin ki, o anları ömrüm boyu unuda bilməyəcəyəm: gözlərim önündə adi toz muncuqları naxışlara, süjetlərə, hətta obrazlara çevrilirdi.

Deyirdim ki, ay Sitarə, hər yerdə iş saatı 8 saatdır, sənin isə iş gününün nə vaxtı-vədəsi var, nə fasilən, nə də məzuniyyətin. Eləcə təvazökarlıqla gülümsəyirdi: başqa cür yaşaya da bilmərəm, yəqin ki, heç təqaüdə də çıxa bilməyəcəyəm, mənim bu dünyada sevdiyim, ürəkdən bağlandığım bir ailəmdir, bir də tikmələrim.

Bu gün isə heç inanmağım gəlmir ki, nağıla bənzər tikmələr sahibi artıq aramızda yoxdur. Bu dünyanı tərk etsə də, nəğməli tikmələri daim yaşayacaq,



müəllifinin istedad və sənətkarlığından, zərif zövqündən gələcək nəsillərə danışacaq.

Mən də bir daha onu xatırlamaq, bu incə duyumlu xanımın yaradıcılığından söz açmaq istəyirəm.

Sufilər deyir: gözəl görən gözəl düşünər, gözəl düşünənin həyatı da gözəl olar. Bu deyimə istinadən deyərdim ki, Sitarə Rəhimova gözəl görüb, gözəl düşünüb, düşündüyünü tikmələrində əks etdirib, duyğularını, heyranlığını, vurğunluğunu elə bizimlə bölüşüb, paylaşıb.

Bədii tikmə ilə hələ Əzim Əzimzadə adına Rəssamlıq məktəbində oxuyarkən artıq ciddi şəkildə məşğul olurdu. Müəllimi görkəmli fırça ustası Vəcihə Səmədovadan rəngkarlıq sənətinin incəliklərini mənimsəmişdi. Sitarə xanım ali təhsilli memar idi, seçdiyi ali təhsil ocağı onun yaradıcı qəlbinə həm uyğun idi, həm də bir qədər fərqli. Memar kimi bir müddət çalışsa da, yenə də tikməyə olan istəyi, iç dünyasında yaşanan bir təmənna üzə çıxdı, "qalib" oldu. Əvvəlcə nənəsinin vaxtilə tikdiyi boxça üzünün tökülmüş muncuqlarını, pilələrini yerinə bərpa elədi, sonra özünə cehiz balınc üzü, gəlinlik duvağı, nişanlısına boğça üzü, daha sonra oğlanlarına bələk üzü, beşik örtüyü tikərək muncuqlarla bəzədi.

Paltarının yaxalığına, əl çantasına, iynə qabına da bəzəklər vurdu. Özü də hiss etmədi ki, nə vaxt tikmə "xəstəsi" olub, mehrini bədii tikməyə salıb. Muzeyləri gəzdi, ana-nənələrimizin, xüsusilə Xurşid Banu Natəvanın əl işlərini görəndən sonra tikmənin adi aludəçilik deyil, əsl sənət olduğunu duydu, dəyərləndirdi. Milli ornamentlərin zənginliyindən vəcdə gəldi, görüb-götürdü, öyrəndi, saysız-hesabsız eskizlər çəkdi, arayıb-axtardı. İynə-sapla ömürlük "dostlaşdı", hətta istədiyi muncuqları tapa bilməyəndə xarici ölkələrdən gətizdirirdi.

Düşündüyü alınanda sevindi, bəzənsə uzandıqca uzanan yuxusuz qış gecələrində bircə-bircə tikdiyini sökdü-tökdü, tikməsindən "küsdü-incidi". Amma bu "küsülülük" çox çəkmirdi. Balalarına oxuduğu laylaları naxışlara çevirdi ("Qızılı cüyürlər", "Cənnət quşu"), həyat yoldaşının onun ad gününə bağışladığı qızılgülləri əzizləyərək rəngli muncuqlarda əbədiləşdirdi ("Qızılgüllər"), bu ölməz xalq sənətinə qəlbən bağlandı.

Lakin ilk böyük işi nağıllarda yaşayan, azadlıq, xeyirxahlıq mücəssəməsi olan "Səməndər quşu" oldu. Bütün gözəlliyi, al-əlvanlığı ilə rəssamın tikməsinə "uçub gəlmiş" səməndər quşu üzü günəşə təsvir olunub. On yox, yüz yox, minlərlə bərq vuran, günəşin şüalarını əks etdirən muncuqları səliqə ilə rəng uyarlığına riayət etməklə tikmək olduqca gərgin əmək tələb edirdi. Üç illik zəhməti hədər getmədi - əsər 1983-cü ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin qızıl medalına layiq görüldü. İllər adladıqca, yeni-yeni əsərlər sərgiləndikcə saysız-hesabsız təriflərin, mükafatların da sayı artırdı. Lakin Sitarə xanım heç zaman özündən müştəbeh olmadı, təvazökarlıqla üzərində işlədiyi yeni əsərindən danışdı.

Sənət yollarında addımladıqca peşəkarlıq xüsusiyyətləri daha da cilalanır, təkmilləşirdi. Görkəmli xalq rəssamı, xalça bilicisi Lətif Kərimovun (ustad sənətkar onun haqqında demişdi ki, "...sənin gördüyün işin misli-bərabəri yoxdur."), sənətşünas Mürsəl Nəcəfovun məsləhətləri yaradıcılığında əxz etdiyi bilgilərdən idi. Müasir dekorativ-tətbiqi sənətimizdə öz üslubu, dəst-xətti ilə yeni bir cığır açdı.

Sonrakı illərdə vətənimizin və xarici ölkələrin, o cümlədən Fransanın, Hollandiyanın, Çinin, Almaniyanın, İtaliyanın, Özbəkistanın və neçə-neçə ölkənin müxtəlif rəsm qalereyalarında, həmçinin muzeylərdə böyük uğurla nümayiş olunurdu. Son onilliklərdə incəsənət muzeyində keçirilən müasir dekorativ-tətbiqi sənət sərgilərində ("Naxışların möcüzəsi", Novruz bayramına həsr edilmiş sərgi və s.) tamaşaçılar Sitarə xanımın "Səməndər quşu", "Qızılı cüyürlər" və digər əsərləri qarşısından çəkilmirdi. Pələmlənən rənglər, muncuqların ahəngdarlığı, yaranmış təsvirlərin ecazkarlığı hər kəsi heyran edirdi. Qırxa qədər irili-xırdalı əsərini barmaqlarına iynə bata-bata, qanını silə-silə tikib ərsəyə gətirmişdi axı! Bəlkə də bunda da bir hikmət yaşanır: əsərləri əllərinin zəhməti, gözünün nuru, qəlbinin təkrarsız nəğməsi idi.

Sitarə xanım mövzu seçimində olduqca diqqətli idi. Qədim miniatür sənətinin incəliklərindən, qədim Çin tikmələrinin spesifik cəhətlərindən, memarlığın monumental xüsusiyyətlərindən, dəzgah rəssamlığının qanunlarından bəhrələnərək dəyərli sənət inciləri yaradırdı. Üstünlüyü isə dəzgah rəssamlığına verirdi: kompozisiya qurur və bu zaman perspektiv, işıq-kölgə effektləri yaratmaq üçün bəzən eyni rəngli muncuqları müxtəlif rəngli saplarla tikir, bəzənsə muncuqları üst-üstə tikərək həcm, rəng keçidləri yaratmağa nail olurdu. Doğrudur, bu əməliyyat, bu növ tikmə çox zəhmət, əziyyət tələb edir, lakin son nəticə olduqca ürəkaçan olurdu. Sitarə xanım mövzuya uyğun olaraq tikmənin növünü seçərək müəyyənləşdirir, bəzən isə bir neçə növ tikmə texnologiyasından: saya, muncuqlu, pilələi, gülmə, quşgözü və digər növlərdən məharətlə istifadə edir, bununla da əsərin tam halda baxılmasına nail olurdu. Könülaçan, gözoxşayan tikmələr, həmçinin məna və məzmun zənginliyi, mövzu əlvanlığı ilə yaddaşlarda əbədiləşmişdir.

1990-cı il 20 Yanvar faciəsinə həsr etdiyi "Ağla, qərənfil, ağla" və "Leyli və Məcnun" (İlham sevgisinin və Fərizə sədaqətinin rəmzi kimi) kompozisiyalarının bədii tərtibatı göz yaşı damlası formasındadır. Daşı-kəsəyi "yuyub-cilalayan" "Şəlalə" isə dairəvi formada öz bədii həllini tapıb.

Mövzulu tikmələri, məişət əşyaları yaradıcılığının bir qolu idi. Sitarə xanımın əsl rəssam kimi istedadı portret janrında özünü büruzə verdi. Portretlərdə zahiri bənzəyiş, obrazın daxili aləminin ifadəsi adicə iynə-sapla başa gəlirdi. Ulu öndərimiz Heydər Əliyevin 76 illik yubileyinə həsr olunmuş portreti üzərində təqribən 2 il çalışmışdı. Türk dünyasının Atası "M. K. Atatürkün portreti"ni isə 1989-cu ildə Türkiyə dövlətinin yaranmasının 75 illiyi münasibətilə H.Əliyev şəxsən Azərbaycanın hədiyyəsi kimi Süleyman Dəmirələ təqdim etmişdi. Hazırda bu portret İstanbulun M. K. Atatürk muzeyindədir.

İndiki kimi yadımdadır; söhbətlərimizin birində dedi ki, bilirsən ki, üç oğul anasıyam, nəvələrim də ki, maşallah, ürəyimin bir parçasıdır. Bütün analar kimi mən də dünyamıza əmin-amanlıq arzulayıram. İstəyirəm bu mövzuda böyük bir əsər işləyim. Bir ideyam da var, daha doğrusu bütün işlərim kimi, onu da yuxumda tam aydınlığı ilə görmüşəm: dünyamızı, qalaktikamızı, ulduzları - bürcləri ilə bərabər tikmədə əks etdirmək istəyirəm. O zaman düşündüm ki, daim ailəsinin qayğısına qalan, yanımcıl ana, sevimli nənə, nəvazişli həyat yoldaşı, eyni zamanda yaradıcılıq eşqi ilə döyünən bu geniş ürək sahibi həqiqətən qeyri-adi bir qadındır. Sonralar hər dəfə görüşlər zamanı arzusunun necə çin olduğunu müşahidə etdikcə onun istedadına, səliqə-sahmanına, rəng duyumuna, zəhmətsevərliyinə bir daha heyran olurdum. "Bürclər" doğrudan da səmavi bir əsər oldu. Tünd göy rəngli parça üzərində ulduzlar parladıqca Sitarə xanımın öz işindən necə qürrələndiyinin şahidinə çevrilirdim. Sən demə bu əsər həyat yoldaşının ad gününə hədiyyəsi imiş!

"Allahu-Əkbər" adlanan əsərdə dünyamızın yaradıcısının adı mərkəzi hissədə, ətrafında isə onun müqəddəs 99 adı islam dinimizi təmsil edən yaşıl rəngli parça üzərində ərəb əlifbası ilə dairəvi formada tikilmişdir. Səkkiz aya başa gəlmiş bu əsər təsadüfdənmi, yoxsa Böyük Yaradanın qüdrətindənmi, məhz Ramazan ayının ilk günündə tamamlanmışdı.

O öz əsərlərini heç zaman satmırdı; nə qədər yüksək məbləğ təklif olunsa da. Elə bil ki, onları satmaq ağır gəlirdi ona. Axı bu əsərlərə ürəyinin pün-





han sözlərini pıçıldamışdı, sözünü-söhbətini çözələmişdi. Yəqin ki, bu əsərlərin əsl qiyməti, dəyəri yuxusuz gecələri, gözünün nuru, tikməyə olan şövqühəvəsi idi. İntəhasız sənət sevgisi, ilk növbədə özünə qarşı tələbkarlığı onu səciyyələndirən xüsusiyyətlərindən idi. Ciddi, mədəni, geniş dünyagörüşünə malik bu rəssam xanım ulu, az qala unudulmaqda olan el sənətini sonsuz məhəbbətlə yaşatmış, çox zəngin, əvəzolunmaz sənət inciləri yaratmışdır.

**İstedad və bacarığı ilə seçilən, tikməyə yüksək peşəkarlıqla yanaşan, ona müasirlik gətirən, bədii tikməyə öz "avtoqrafını" yazmış bu rəssam cəmiyyətimizə, tamaşaçılara, müasir təsviri sənətimizə əsl töhfə, yenilik bəxş etmişdir. Bu sahədə nadir və yeganə sənətkar idi.**

Elmira QASIMOVA,
*Azərbaycan Dövlət İncəsənət muzeyinin direktor müavini*

# Ölməz sənətkar xatirələrdə

*"Onun mehriban əllərinin tumarı əzizlərindən daha çox muncuqlara düşürdü, baxışları onları daha çox oxşayırdı...Sevdiyinə səmadan bir ulduz qoparıb vermək sevdası ilə vəd verənlər çox olub, amma büsbütün fəzanı can dostunun ad gününə hədiyyə etmək kimi orijinal bir fikir hər adamın ağlına gəlməzdi...Tünd göy rəngli dairəvi çərçivədə bütün fəza cisimlərinin - 12 bürcün, sayrışan ulduzların təsvirləri, tam mərkəzdə isə ömür-gün yoldaşının adına işarət edən canlının təsviri! Bununla sənətkar, sanki, Yer Günəşin ətrafında fırlandığı kimi, onun üçün də dayaq nöqtəsinin, həyat dediyimiz çevrə mərkəzinin Kim olduğunu göstərmək istəyib.*

*Misilsiz, bənzərsiz bir hədiyyə oldu bu tikmə. Həm də yalnız bir nəfərə yox, onu seyr edən bütün insanlara. 15 illik zəhməti hər kəsi heyran etdi. Üzü günəşə uçan "Səməndər quşu"nu isə Sitarə xanımın avtoportreti hesab etmək olar".*

Sevinc ABDULLAYEVA,
*şairə*

"Ömrünü, yaradıcılığını bu sənətə həsr etmiş Sitarə Rəhimovanın Pekində, Hollandiyada, Fransada, Almaniyada keçirilmiş sərgilərdən gələn sorağı Azərbaycanın xalq sənətinə verilmiş yüksək qiymət kimi dəyərləndirilə bilər.

Ulu el sənətini ülvi məhəbbətlə əsərlərində yaşadan rəssamın istedadı insanların qəlbində estetik humanist hisslərin aşılanması, gənclərin estetik tərbiyəsində bədii zövqün, milli ənənələrin püxtələşməsi baxımından əvəzsiz xidmət göstərir".

Röya TAĞIYEVA,
*Azərbaycan xalçası və xalq tətbiqi sənəti Dövlət Muzeyinin direktoru, sənətşünaslıq doktoru*

**"Mənə elə gəlir ki, bu cazibədar, məlahətli, gözəl insanı həmişə tanımışam, əzizlərim, qohumlarım, yaxınlarım kimi həmişə mənimlə olub. Sonralar - hadisələrin gedişatı; qismətmi, təsadüfmi, yaxud zərurətmi bizi daha da yaxınlaşdırdı, qohum elədi: qızım Rəna onun kiçik gəlini oldu. Sitarə xanım hər üç gəlinini qızı qədər sevib, onlara qarşı mehriban, xeyirxah və səmimi olub. Mən bunu taleyin töhfəsi hesab edirəm.**

**Xalqımıza xas adət-ənənələri, düşüncə tərzini hər şeydən üstün tutan bir azərbaycanlı qadının öz ailəsində bu mənəvi dəyərləri xüsusi bir ehtiramla qoruması daxili bütövlüyün, şəxsiyyət kimi tamlığın ifadəsi idi.**

**Ünsiyyətdə Sitarə xanımın səbr dolu mühakimələri, yaxşı və yaman insanlar haqqında mülahizələri, onları əfv etmək, bağışlamaq bacarığı, xeyrə və şərə münasibəti, taleyinə düşən çətinliklərə əyilməmək, təslim olmamaq kimi xüsusiyyətləri, zərif və incə qəlbindəki sonsuz gücqüdrət məni heyrətə gətirirdi.**

**Üzündən təbəssümü əskik olmayan Sitarə xanımı həmişə belə xatırlayacağam."**

Səidə ZEYNALOVA